

*Xatirə FƏRƏCLİ*

## BELƏCƏ BURAXIB

Dəli bir istək var canımda indi,
Baş alıb harasa getməyim gəlir.
Mən gec öyrəşənəm, çətin tərk edən,
Bəs nədir bu istək -- içimi dəlir.

Beləcə, buraxıb
                    bulanıqlığı
Hansı nisgilimi ovudub gedim?
Yerində boğulan diləklərimi
Necə yola verib, təsəlli edim?

Alıb ürəyimi, alıb başımı,
Bu yüklə özümə yer tapım harda?
Varmı elə bir yer, elə bir aləm
Məni çəkə bilsin, əriyim orda?!

* * *

darıxmağın daşın atdım,
daha darıxan deyiləm.
o ilan soyuqluğunu
sinəmə sıxan deyiləm.

tapınmışdım bir diləyə,
kürüyüb verdim küləyə.
bir dərdi də bu ürəyə
yükləyib yıxan deyiləm.

itirdiyini hələ sən
çətin anlaya biləsən.
çıx get, getməyə tələsən,
arxanca baxan deyiləm.

* * *

Əsir düşən qızcığaz,
böyüdün... ağrı-ağrı...
lənət oxudunmu heç
gəldiyin dünyaya,
doğulduğun günə,
lənət oxudunmu heç
səni qadın cinsində dünyaya gətirənə?

əsir düşən qızcığaz,
böyüdün... göynək-göynək...
heç qıy vurub qopdunmu
çığırtıyla özündən,
qəlbindən axan qanlar
nifrət-nifrət
töküldümü gözündən,
bəbəyindən,
uzatdınmı əlini
yapışmağa
Yaradanın ətəyindən?

Əsir düşən qızcığaz,
bu nə ömür sənə düşdü
bu əsrdə, bu zamanda...
...saçlarının ucunacan
yanmamış yeri qaldımı
səni doğan ananın?
əgər sağsa, əgər canı üstündəysə
yanğısının tüstüsündən
his bağladı, göyün üzü qaraldı,
ölkə, vətən işğaldan yox
sənə görə kiçildi,
sənə görə daraldı...

## BİR ÇİYİN TAPMADIM

Bunu da adlayıb keçərəm, əlbət,
Çox da ki, hər ağrı bir sevinc alar.
Bircə dəfə sınar, ürək sındısa,
Bir daha nə sınar, nə də qəhr olar.

Mən nələr adlayıb, nələrdən keçib
Neçə fırtınalar
fırladıb gəldim,
Çəkilməz dərdlərin qatlayıb dizin,
Ağır
ağrıları
aldadıb gəldim.

Ürəklər sındırıb,
diləklər qırıb,
Bir çiyin tapmadım başımı qoyam.
Çəkimdən ağıram, boyumdan böyük,
Mən belə bədbəxtəm, neyləyim, buyam.

* * *

Bir nağıl uydurmuşdum
elə nağılmış, demə,
dinləməli ürək yox,
ancaq ağılmış, demə.

demə
nağıl dünyada
elə nağıl olmaq var.
götür hazır nağılı,
hara istəsən apar.

uydurani anlatma,
çətin kimsə anlaya.
qurduğum bu nağılda
nə daş oldum, nə qaya.

ürək-ürək qalanıb,
ürək-ürək də söndüm.
sanki,
mən bu dünyaya
ürək adlı bir yükdüm.